***Xalid Mahmud***

# *Xocalı ağısı*

O gecə
düşmən gülləsiylə yazıldı bir millətin
alın yazısı.
Dalğalandı
bir elin üstündə şəhid qanlarıyla
rənglənmiş bayraq.
Səngərlərin üstünə
çökdü ölüm kölgəsi,
Tanrı dərgahına yetmədi bir şəhidin
qanlı dodaqlarının son nidası.
Bir ananın gözlərində çiçəkləndi ümidləri,
Körpəsinə səngər oldu qucağı.
Bir körpənin
qanamış əllərində dəfn etdilər torpağı.
Yenə əlimdə qələm, sözlərim
varağa axıb ağlayır.
Sükut
üzüqoylu yıxılıb
Xocalıya gedən yola,
Harayım yazıq-yazıq baxıb ağlayır.
İçimdə bir ocaq yanır qızınır ümidlərim.

***Mahmud X. Xocalı ağısı : şeir // Ulduz. - 2008. - № 8. - S.46,47.***